Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

İkinci sessiya
Yaz

26-cı cild

1 aprel 2025-ci il

Milli Məclisin nəşri
Bakı – 2025

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# II SESSİYASI İCLASININ

# PROTOKOLU № 27

*Milli Məclisin iclas salonu.*
*1 aprel 2025-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 122 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 110 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Nəqliyyat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
2. “Təhsil haqqında” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
3. “Feldyeger rabitəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, “Sosial sığorta haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Uşaq hüquqları haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında”, “Dövlət rüsumu haqqında”, “İcra haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında”, “Əmək pensiyaları haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyaya qoşulmaq barəsində”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Valyuta tənzimi haqqında”, “Kommersiya sirri haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında”, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamədə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. “Dövlət rüsumu haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında”, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında”, “Standartlaşdırma haqqında” və “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Tural Gəncəliyev, Zahid Oruc, Bəhruz Məhərrəmov, Əziz Ələkbərov, Naqif Həmzəyev, Ceyhun Məmmədov, Hicran Hüseynova, Hikmət Məmmədov, Azər Badamov

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**1. "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

| **Səsvermənin nəticələri** | (saat 11.32 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**2. "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar İsgəndərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.32 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**3. "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.33 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**4. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Əli Hüseynli, Hicran Hüseynova, Azər Əmiraslanov, Əhliman Əmiraslanov, Zahid Oruc

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 10–12-ci maddələr qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 11.41 dəq.)

| | |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** 13–15-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16–19-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**6. “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**7. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Vüqar Bayramov, Aydın Mirzəzadə, Asif Əsgərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Valyuta tənzimi haqqında”, “Kommersiya sirri haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında”, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 10–12-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Ziyafət Əsgərov, Vüqar Bayramov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 100 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**10. "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 104 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**11. Azərbaycan Respublikasının Cinayət Məcəllə-**

**sində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Vasif Qafarov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**12. “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında”, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında”, “Standartlaşdırma haqqında” və “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**13. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Əminə Ağazadə, Zahid Oruc, Nigar Məmmədova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**14. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanun-**

**larında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamran Bayramov, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**15. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*1 aprel 2025-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 110 |
| Yetərsay | 83 |

İclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, dünən ölkəmizdə Azərbaycanlıların Soyqırımı Günü qeyd edilmişdir. Erməni şovinistlərinin vəhşiliyinin qurbanı olmuş on minlərcə günahsız insanın xatirəsi ehtiramla yad edilmişdir.

Hörmətli deputatlar, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatında əldə edilən tarixi qələbələr nəticəsində dövlətimizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuş, erməni ekspansionizminə sarsıdıcı zərbə endiril-

mişdir. Son iki yüz ilə yaxın dövrdə məruz qaldığımız torpaq itkiləri, etnik təmizləmələr və soyqırımları silsiləsinə son qoyulmuşdur. Biz əminik ki, bütün bunlar xalqımıza qarşı yeni soyqırımı cinayətlərinin baş verməməsinə ən yaxşı təminatdır.

Hörmətli həmkarlar, gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, 30 dəqiqəmiz var. Gündəmdə olan, ya da gündəliklə bağlı olan məsələlərə kim münasibət bildirmək istəyirsə, buyurub yazıla bilər. 10 nəfər çıxış edəcək. 10 nəfərin siyahısı qalsın.

Nizami Səfərov. Buyurun.

**Nizami Səfərov**. Hörmətli xanım sədr, hörmətli deputatlar, Avropa İttifaqının Ermənistandakı “müşahidə missiyası” Azərbaycanla həmsərhəd ərazilərdə binokl diplomatiyasını davam etdirir. Növbəti dəfə belə addımlar cari il fevralın 13-də Qubadlı, martın 28-də isə Qubadlı və Laçın rayonlarının Ermənistanla həmsərhəd zonalarında baş vermişdir. De-fakto ölkəmizə qarşı belə bir təxribat vasitəsi, şübhəsiz ki, heç bir nəticə verə bilməz. Çünki Azərbaycan 30 ilə yaxın bir müddətdən sonra işğal altında

olan torpaqlarını azad edərək ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Azərbaycan iqtisadi, siyasi və hərbi baxımdan Cənubi Qafqazın ən güclü dövləti olaraq beynəlxalq miqyasda ciddi söz sahibidir və bütün məsələlərin ikitərəfli müstəvidə birbaşa müzakirə edərək həll olunmasına üstünlük verir.

Digər tərəfdən, 30 illik müddət nümayiş etdirdi ki, tarixə qovuşan silahlı münaqişənin həllində beynəlxalq vasitəçilər, xüsusi ilə də ATƏT-in Minsk qrupu heç bir nəticə əldə etməyib. Maraq doğuran cəhət ondan ibarətdir ki, hazırda Avropa İttifaqının hətta regional problemlərin həllinə təsiri sıfır dərəcəsindədir. Bunu Rusiya və Ukrayna arasında mövcud silahlı münaqişənin həlli üçün Amerika Birləşmiş Ştatları ilə Rusiya Federasiyası təmsilçilərinin apardıqları danışıqlarda həmin birliyin, ümumiyyətlə, iştirak etməməsi açıq-aşkar nümayiş etdirir, ABŞ Administrasiyasının qeyd etdiyi məsələdə Avropa İttifaqının, aparıcı dövlətlərin beynəlxalq hüquqi subyektliyini şübhə altına almışdır. Almaniyanın ən böyük silah istehsalçısı "Rheinmetall" konserninin rəhbəri Armin Papperger nüfuzlu "Financial Times" qəzetinə müsahibəsində qeyd etmişdir ki, ABŞ ilə Rusiya qlobal məsələləri müzakirə edərkən Avropa uşaq masası arxasında qalıb və heç bir avropalı bu danışıqlara cəlb edilməyib. Bu məqamda sual olunur ki, Ermənistan uşaq masası arxasında əyləşdirilən Avropa İttifaqının üzv dövlətlərinin "müşahidəçi missiyasından" nə gözləyir?

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dəfələrcə vurğuladığı kimi, ikitərəfli münasibətlərin normallaşması üçün heç bir vasitəyə ehtiyac yoxdur və bütün məsələlər beynəlxalq hüquq əsasında ikitərəfli

müstəvidə müzakirə edilərək həllini tapa bilər. Ermənistan rəhbərliyi bu sadə həqiqəti nə qədər tez dərk etsə və reallıqda praqmatik yanaşma nümayiş etdirsə, o zaman regionda davamlı sülhün və beynəlxalq təhlükəsizlik rejiminin bərqərar olunması təmin edilə bilər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, öncəliklə, hamınızı keçmiş Ramazan bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edirəm. Xalqımız, ölkəmiz, bütün islam dünyası üçün bərəkətli olsun.

Hörmətli həmkarlar, bildiyiniz kimi, dünən Almaniya Prezidentinin rəsmi səhifəsində Azərbaycanın əleyhinə olan bir paylaşım edilmişdi. Sonradan bunun texniki səhv olduğu qeyd edilmiş və sosial şəbəkədən silinmişdir. Almaniya tərəfi Azərbaycana müvafiq məktubla müraciət edərək üzrxahlığını bildirmişdir. Təbii, bu bizim ölkəmizin, onun liderinin, xalqımızın gücünü, siyasi çəkisini göstərir. Ümumiyyətlə, Azərbaycanın tərəfdarları, partnyorları başa düşməlidirlər ki,  Azərbaycan suveren ölkə olaraq bu kimi diqqətsizliklərə qarşı çox həssas yanaşır. Xüsusi ilə nəzərə alsaq ki, biz 30 il ərzində Ermənistanın işğalına məruz qalmış bir ölkəyik, bu baxımdan suverenlik, ərazi bütövlüyü kimi məsələlər bizim qırmızı xəttimizdir. Bunu bütün tərəfdaşlar, bütün dünya ictimaiyyəti başa düşməlidir.

Bildiyiniz kimi, Almaniyanın məşhur “Deutsche Welle” kanalında bir neçə gün bundan öncə bizə qarşı təxribat xarakterli sənədli bir film də yayımlanmışdır. Hesab edirəm ki, həmin o sənədli filmlə də bağlı müvafiq addımlar atılmalıdır. Çünki mövcud olmayan qondarma

rejim, onun bayrağı, Qarabağda erməni sakinləri kimi dırnaqarası mövzuları təzədən qabartmaq Ermənistana, oradakı revanşist qüvvələrə əlavə güc verir. Məsələn, bir neçə gün bundan öncə Ermənistanın xarici işlər naziri öz iranlı həmkarı ilə mətbuat konfransı keçirərkən yenidən ölkəmizə qarşı bəyanatlar səsləndirmişdir. Qeyd etmişdir ki, guya Azərbaycan sülh prosesində yeni iddialar irəli sürür, sülh müqaviləsinə yeni bəndlər əlavə edir. Bu cür absurd fikirlər səsləndirmişdir. Ancaq Ermənistan tərəfi unudur ki, əksinə, Azərbaycan sülh müqaviləsinin layihəsini təklif edən birinci tərəf olmuşdur. Biz münaqişənin ağır mirasları olan elementlərin, ümumiyyətlə, silinib atılmasını istəyirik. Məsələn, Minsk qrupu kimi institutun ləğv edilməsi, onun heç vaxt qaldırılmaması, beynəlxalq məhkəmələrdə qarşılıqlı iddiaların irəli sürülməməsi, Ermənistan konstitusiyasından təbii ərazi iddiasının aradan qaldırılması kimi məsələləri biz konstruktiv hesab edirik. Bunların qarşılıqlı olması üçün Ermənistan tərəfi hərəkətə keçməlidir. Ancaq Avropada, Qərb ölkələrində bəzi kütləvi informasiya vasitələrində yayılan bu kimi məlumatlar Ermənistana yalançı vədlər, revanşizmə fikirlər verir ki, buna da yol verilməməlidir.

Bu məsələlər bir daha göstərdi ki, bizim dövlətimiz güclüdür, onun lideri xalqımızın, ölkəmizin maraqlarını qoruyur. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Hörmətli sədr, Prezident İlham Əliyev “Euronews” televiziyasına müsahibəsində dünyada yeni təhlükəsizlik arxitekturası haqda danışarkən Tramp Administrasiyası ilə güclü tərəfdaşlığa inandığını növbəti

dəfə vurğuladı. Ölkə başçısı Ukraynada gedən müharibəni şərh edərkən siyasətə və xüsusi ilə qlobal maraqların toqquşduğu coğrafiyalarda dövlət rəhbərliyinə gələn şəxslərə dərs, yol xəritəsi göstərdi. Sitat: "Əgər siz həmişə kimdənsə asılısınızsa və yardım istəyirsinizsə, onda bir gün həmin şəxs gəlib sizdən hesabat istəyəcək". Bəli, bu, aksiomdur. İndi Ağ Evin yeni sahibi gəlib və ABŞ-nin ayırdığı pulların hesabını istəyir. 16 milyon əhali köçkünə çevriləndən, 30 faiz torpaq və yüz minlərcə insan itiriləndən sonra qəhrəman ukraynalılardan təbii sərvətləri ilə borclarını qaytarmaq tələb olunur. Lakin 51 dövlətin Ukraynaya verdiyi yardımın üçdə ikisi korrupsiya yolu ilə mənimsənilib. Qlobal müharibə partiyası bir xalqın qanı üzərindən yüz milyardları silib. Heç bir millətə vətəninin mülkiyyət hüququnu təslim edib təhlükəsizlik zəmanəti almağı arzulamırıq. Bunun harası müstəqillik oldu? Bunun harası ləyaqət inqilabı oldu? Bunun harası avrointeqrasiya oldu?

İllərdir, dövlətimizə şər atanlar 1994-cü ilin "Əsrin müqaviləsi"ni, təhlükəsizlik zəmanəti olmadan atəşkəs razılaşmasını hazırkı Ukrayna ilə müqayisə etsinlər. Görsünlər ki, Ulu Öndər Heydər Əliyev məğlub cəbhə hakimiyyətini kapitulyasiyadan necə xilas edib qələbəmizin əsasını qoymuşdu. Müqaviləni belə bağlayarlar, cənablar. Ulu Öndərdən öyrənin, çünki o, təkcə azərbaycanlılara deyil, bütün xalqlara qurtuluş yolunu göstərib.

Uzun on illər ölkəmizin liderinin dediklərini indi Ağ Evdə təsdiqləyənlər Peqasus, Panama kimi küfr sənədlərini, "kompromat" yayanları ifşa edirlər və dövlət başçımızın "yalançı dördlük" adlandırdığı "New York Times" və digər şər maşınının haradan idarə olunduğunu üzə çıxarırlar. Görün, Qorbaçovun "Правда"sı ilə Baydenin

“Washington Post”u necə bir-birinə bənzəyir. İnanırıq ki, terror mediası, Osmanqızı, azad söz və digər muzdlu şəbəkə də məhv olacaq.

İndi qalib Azərbaycanın taleyi özündən asılıdır. Dövlət rəhbəri və mərkəzi hakimiyyət sistemi güclü olanda xarici amillər dağıdıcı təsirini itirir. Ölkəmizdə kənar qüvvələrin hökmran mövqeyi heç vaxt indiki qədər zəif olmayıb. Qarabağda qələbəmiz tarixdə ilk dəfə dövlətimizə yeni Yalta konfransına vəsiqə qazandırıb. Ermənistana sərhədi başqa dövlətlər deyil, məhz liderimiz göstərib. İrəvanın taleyi heç vaxt indiki qədər Bakıda həll olunmayıb. 300 illik erməni ideyası iflasa uğrayıb və ermənilər Xankəndidən olduğu kimi İrəvandan da könüllü çıxıb gedirlər. İnanırıq, qardaş ölkə Türkiyə sərhədin açılması qərarını çıxararkən nəzərə alacaq ki, İrəvanın Ankara qarşısında 100 illik ərazi və 50 illik soyqırımı tələbini indi irəli sürməməsinin ən böyük səbəbi bizim Qarabağ qələbəmizdir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, Almaniya Prezidentinin Ermənistana səfəri çərçivəsində rəsmi səhifəsində qondarma rejimin dırnaqarası bayrağını paylaşması, o cümlədən erməni haqlarından dəm vurması beynəlxalq hüquqazidd davranış olmaqla bərabər, həm də yenidən İrəvan küçələrində aksiyalara başlayan revanşistləri ümidləndirmək, Ermənistanı yeni müharibəyə təşviq etmək demək idi. Lakin Azərbaycanın qətiyyəti qarşısında rəsmi Berlinin üzrxahlıq etməsi bir daha göstərdi ki, cənab İlham Əliyev hərbi-siyasi qələbələri ilə elə geosiyasi konfiqurasiya formalaş-

dırıb ki, artıq hər kəs bizimlə bu bölgədə hesablaşmaq zərurətini dərk edir.

Hörmətli həmkarlar, toxunmaq istədiyim ikinci məsələ Türkiyədə müşahidə olunan proseslər fonunda son günlər yanlış olaraq bu proseslərdən Azərbaycan üçün pay biçmək cəhdləri ilə bağlıdır. Nə qədər qəribə olsa da, bu gün cəmiyyətdə bir qisim insan Türkiyə vətəndaşlarından daha çox Türkiyə siyasətində imiş kimi davranmaqdadır. Bəli, Türkiyədə gərginlik var, amma problemi yoluna qoymaq üçün qardaş dövlətin yetərincə gücü, türk xalqının isə yetkin iradəsi mövcuddur. Kənardan heç kimin məsləhət və tövsiyələrinə ehtiyac duyulmur. Doğrusu nədir, Türkiyə özü qərar verəcək. Bu mənada Azərbaycanda öz ölkəsində zərrə qədər nüfuzu olmayan siyasi "luzer"lərin Türkiyədə yaşananlara Azərbaycan siyasi kəsimi adına müdaxilə xarakterli çıxışlar etməsi, sadəcə, gülünc doğurur. Bilirsiniz ki, eyni kəsim bir zamanlar profillərini Ukrayna bayraqları ilə bəzəyir, çıxışlarını "Слава Украине" sözləri ilə başlayıb bitirirdi. Amma Trampın hakimiyyətə gəlməsi və Amerika Birləşmiş Ştatlarının bu məsələdə mövqeyinin dəyişməsi ilə adıçəkilən dairələrin Ukrayna sevgisi də başa çatdı. Bu gün həmin kəsimin yenidən fəallaşmasının məqsədi kifayət qədər aydındır. Antimilli şüur gizlətmir ki, baş verənlərə türk baharı kimi ümid edir. Amma bu adamlar hələ də başa düşmürlər ki, türkün baharı idxal olunan inqilablar deyil, türkün baharını artıq cənab İlham Əliyev Qarabağın, Şərqi Zəngəzurun azad edilməsi ilə başladı. Türk baharı ilə türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizidir. Türkün baharı Qərbi Azərbaycana qayıdışdır.

Qərbi Azərbaycandan söz düşmüşkən, heç görmüsü-

nüzmü, qonşu ölkələrdəki hadisələri Soros tezislərinə uyğun əcnəbi media orqanlarında həvəslə təhlil edən antimilli ünsürlər, bir kəlmə də olsun, Qərbi Azərbaycan mövzusunu dilə gətirsin? Baxmayaraq ki, bu gün Azərbaycan siyasətçisinin xarici mediada əsas mövzusu bu olmalıdır. Hansı mövzu 350 mindən artıq soydaşımızın taleyindən daha qiymətli ola bilər? Yaxşı, bu adamların mövqeyinin beynəlxalq aləmdə Qarabağ bölgəsində mövcud olmuş separatçı rejimin rəhbərlərinin müdafiəsinə qalxanlarının mövqeyindən fərqi nə olur? Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Əziz Ələkbərov. Buyurun.

**Əziz Ələkbərov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, dünyanın ABŞ, Rusiya və Fransa kimi nəhəng ölkələrinin və ən böyük beynəlxalq təşkilatların 30 il ərzində həll edə bilmədiyi bir problemi Azərbaycan öz gücü ilə 44 gündə həll edəndən sonra çoxlarının maskası yırtıldı və əsl siması ortaya çıxdı. Məlum oldu ki, həm Ermənistan, həm də Azərbaycan tərəfdən milyonlarca insanın əzab-əziyyəti, on minlərcə insanın ölümü, şikəstliyi ilə nəticələnən bu münaqişəyə səbəb olan da, 30 il ərzində onun bitməyini istəməyən də, bu gün bölgəni yenidən müharibə meydanına çevirməyə çalışan da elə həmin dövlətlər, həmin təşkilatlar və onların yerlərdəki əlaltılarıdır. Dünənə qədər bunu siyasətlə edənlər 44 günlük müharibədən sonra artıq açıq-aşkar şəkildə edirlər.

ABŞ-nin, Qərbin imperialist təfəkkürlü ölkələri, siyasətçiləri və təşkilatları bu 30 ildə Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal edilməmiş kimi, Azərbaycanın bir milyon insanı yurd-yuvasından qovulmamış kimi, işğal

altında olan yüzlərcə kənd və şəhərimiz ermənilər tərəfindən yer üzündən silinməmiş kimi, minlərcə tarixi mədəni abidəmiz ermənilər tərəfindən məhv edilməmiş kimi utanmadan, qızarmadan qalxıb Azərbaycanı ittiham etməyə, Ermənistanı sülh göyərçini kimi göstərməyə çalışırlar. Ermənistanı öz imperialist maraqlarına alət edənlər, erməni xalqını bu yolda zəlil, erməni zehniyyətini əlil edənlər birdəfəlik anlamalıdırlar ki, Şərqi Avropada və Yaxın Şərqdə oynadıqları oyunlara Azərbaycan xalqının və Azərbaycan dövlətinin qarnı toxdur. Biz 30 ildə kimin kim olduğunu gördük.

Bu günlərdə mədəni və dini irsin vəziyyəti ilə bağlı Azərbaycana hansı isə beynəlxalq müşahidəçilər göndərilməsi tələbini yenidən irəli sürən ABŞ-nin Dini azadlıq komissiyasına xatırlatmaq istərdik ki, belə bir missiyanı öz dini tolerantlığı ilə dünyaya örnək olan Azərbaycana deyil, etnik və dini mənsubiyyətinə, azərbaycanlı və müsəlman olduğuna görə Qərbi Azərbaycandakı ata-baba yurdlarından sonuncu nəfərinə qədər qovulub çıxarılan indiki Ermənistana göndərmək lazımdır. Dini azadlıq pərdəsi arxasında gizlənmiş bu qurum, yaxşı olar ki, hesabat verəndə son 35 il ərzində indiki Ermənistanda dağıdılmış 300-ə yaxın müsəlman məscidi, 500-dən artıq müsəlman qəbiristanlığı barədə də hesabat versin. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Naqif Həmzəyev. Buyurun.

**Naqif Həmzəyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Bu gün çıxışımda şəhər və rayonlarımızda sahibsiz heyvanlarla bağlı mövcud problemləri və onların həlli yollarını diqqətinizə çatdırmaq

istəyirəm. Son bir ildə təkcə Gəncə şəhərində 1200-dən çox it dişləməsi hadisəsi üzrə təcili tibbi yardım xidmətinə müraciət edilibdir. Bu rəqəm sahibsiz heyvanların şəhər və rayonlarımızda yaratdığı təhlükəni açıq-aydın göstərir. Sahibsiz heyvanların peyvənd edilməməsi və onlara tibbi yardımın göstərilməməsi nəticəsində quduzluq və digər xəstəliklərin yayılması riski artmaqdadır. Problemi təsvir etmək üçün qeyd edim ki, şəhər və rayonlarımızda sahibsiz heyvanlar üçün sığınacaqlar mövcud deyil. Heyvanlar mütəmadi olaraq peyvənd edilmir və tibbi yardım almırlar.

Şəhər və rayonların mərkəzi parklarında, küçələrində belə sahibsiz heyvanların sakinlər üçün ciddi problemlər yaratdığına şəxsən şahidlik etmişəm. Bu da sakinlərimizin sağlamlığı üçün ciddi təhlükə yaradır. Bu problemin həlli üçün bir neçə təklif irəli sürmək istərdim. Sahibsiz heyvanların təhlükəsizliyini təmin etmək və onların vəziyyətini yaxşılaşdırmaq üçün müvafiq qanunvericilikdəki boşluqlar aradan qaldırılmalıdır, yaxud sahibsiz heyvanlar haqqında yeni qanunun hazırlanması çox vacibdir. Sahibsiz heyvanlar üçün mütəmadi sığınacaqların yaradılması onların təhlükəsiz şəkildə saxlanılması üçün vacib bir addımdır. Bu sığınacaqlar heyvanların tibbi müayinəsi və müalicəsi üçün də istifadə oluna bilər. Sahibsiz heyvanların mütəmadi olaraq peyvənd edilməsi, xüsusi ilə quduzluq əleyhinə peyvəndlərin icrası bu cür xəstəliklərin yayılmasının qarşısını ala bilər. Sahibsiz heyvanlara tibbi yardım göstərilməsi üçün mobil klinikaların təşkil edilməsi də bu problemin həllinə qismən kömək ola bilər.

Şəhər sakinləri arasında sahibsiz heyvanlara qarşı düzgün münasibətin təşviq edilməsi üçün də maariflendirmə kampaniyaları aparılmalıdır. İnsanlara sahibsiz

heyvanlarla necə davranmaq və onları qorumaq haqqında məlumatlar vermək məqsədəmüvafiqdir.

Sahibsiz heyvanların problemlərinin həlli üçün kifayət qədər vəsait ayrılmalıdır. Bu vəsait sığınacaqların yaradılması, peyvənd proqramlarının icrası və tibbi yardımın göstərilməsi üçün istifadə olunmalıdır. Ən əsası isə sahibsiz heyvanların problemi ilə hansı qurumun konkret məşğul olması müəyyənləşdirilməlidir və onların fəaliyyəti mütləq koordinasiya edilməlidir.

Hörmətli xanım sədr və həmkarlar, bu problemlərin həllinə birgə səylərimizi yönəltmək, şəhər və rayonlarımızda sahibsiz heyvanların vəziyyətini yaxşılaşdırmaq üçün Milli Məclisdə ictimai dinləmə keçirilməsi ən əsas töhfələrimizdən biri ola bilər. İnanıram ki, sadaladığım addımlar sahibsiz heyvanların sakinlərimizlə birlikdə təhlükəsiz və sağlam şəraitdə yaşamasına kömək edəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, məlum olduğu kimi, bir neçə gün bundan əvvəl Amerika Birləşmiş Ştatlarının Dini azadlıq komissiyası növbəti illik hesabatını dərc etdi. Əvvəlki illərdə olduğu kimi, bu dəfəki hesabatda da həqiqəti əks etdirməyən bir çox məlumatlar göstərilib.

Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində bu gün Azərbaycan dünyada tolerantlıq və multikulturalizm mərkəzlərindən birinə çevrilib. Bu gün nəinki Azərbaycanda fəaliyyət göstərən bütün dinlərin etiqad azadlığı təmin olunub, hətta onlar arasında fərq

qoyulmadan hər birinə davamlı olaraq dövlət büdcəsindən maliyyə ayrılır. Biz dəfələrcə ölkəmizdə səfərdə olan, müxtəlif ölkələri təmsil edən dini liderlərin Azərbaycanın xaricə idxal edə biləcəyi sərvətlərdən birinin tolerantlıq və multikulturalizm olduğunu söylədiklərinin şahidi olmuşuq. Bu, dünyanın çox az ölkələrində rast gəlinən azsaylı faktlardandır.

Bu gün Azərbaycana qarşı əsassız ittihamlar səsləndirən bu komissiya Ermənistanda və Qarabağda azərbaycanlıların başına gətirilən müsibətləri görməməzlikdən gəlir. Təkcə Ermənistan ərazisində 300-ə yaxın məscid, 500 qəbiristanlıq, eyni zamanda, Qarabağda 67 məscid Ermənistan tərəfindən dağıdılıb. Hətta yeganə pravoslav kilsəsi belə dağıntılara məruz qalıb. Bizi Qarabağda yaşayan ermənilərin hüquqlarını pozmaqda ittiham edənlər 30 il ərzində məscidlərimizin dağıdılmasına, içərisində donuz və inək saxlanılmasına hər zaman göz yumdular. Bu gün də eyni siyasət davam edir. Onlar erməni diasporlarından və lobbi təşkilatlarından maliyyə vəsaitləri alaraq ölkəmizə qarşı qarayaxma kampaniyasını davam etdirirlər.

Reallıq isə tamam fərqlidir. Azərbaycan azsaylı ölkələrdəndir ki, burada məscidi də, kilsəni də, sinaqoqu da dövlət tikir. Azərbaycan müsəlman ölkəsi olsa da, heç zaman məscidi kilsə və sinaqoqdan ayırmayıb. Onlara hər zaman bərabər münasibət sərgiləyib. Bu reallığı yuxarıda qeyd etdiyimiz faktlar bir daha təsdiq edir və bütün dünya bunu qəbul edib. Yaxşı olar ki, bu komissiya və departamentlər gözlərini açıb həqiqəti görsünlər. Azərbaycana qarşı bu cür kampaniyalara və təxribatlara son qoymağın vaxtı çoxdan çatıb. Onlar, onsuz da, heç zaman çirkin məqsədlərinə və xəbis niyyətlərinə nail ola bilməyəcəklər.

Bunun üçün, sadəcə, gözlərini açıb həqiqəti görməlidirlər. Həqiqət isə birdir. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Azərbaycan ədalətli mübarizə apara私araq uzunmüddətli işğala son qoydu, ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, regionda yeni reallıq yaratdı. Bütün təzyiqlərə baxmayaraq, ölkəmizin beynəlxalq nüfuzu yüksəlir. Dünyanın yeni nizamı qurulur, mürəkkəb geosiyasi proseslər fonunda Azərbaycanın rolu və iştirakı gündən-günə artır.

Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, beynəlxalq arenadakı mövqeləri daha da möhkəmləndirilib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr ölkəmizin iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Yəni Azərbaycan həm iqtisadi, həm strateji, həm də geosiyasi baxımdan ciddi qəbul olunan bir dövlətdir və beynəlxalq səviyyəli aktordur. Buna görə də ölkəmizlə münasibətdə digər dövlətlər də bu nüansları nəzərə almalı, ikili standartlardan uzaq olmalı, erməni diasporunun, hansısa siyasi qüvvələrin maraqlarını deyil, daha səmimi və beynəlxalq hüquq və normalar çərçivəsində münasibətləri əsas götürməlidirlər. Belə olarsa, perspektivli əməkdaşlıqlar daha da inkişaf edər. Əks təqdirdə itirən qarşı dövlətlər olacaqdır. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, bir gün öncə biz 31 Mart – Azərbay-

canlıların Soyqırımı Gününü qeyd etdik. Bir neçə gündən sonra isə tarixi Zəfərimizin ilk müjdəsi olan 2016-cı il aprelin 4-də baş vermiş Aprel döyüşlərini yad edəcəyik, qeyd edəcəyik. Bu iki tarixi hadisə arasında olan interval tarixin ibrət dərsləridir. Azərbaycanlılara qarşı soyqırımı təkcə 1918-ci ildə yekunlaşmadı, 1948–1953-cü illərdə, 1987–1991-ci illərdə də azərbaycanlılara qarşı soyqırımı törədildi. Ona görə də böyük dövlət xadimi Ulu Öndər Heydər Əliyev 1998-ci il martın 26-da bu günün simvollaşdırılması və tarixi yaddaşımız kontekstində unudulmaması üçün bu hadisəyə siyasi qiymət verdi.

Mənə elə gəlir ki, bu sərəncamın üç mühüm tərəfi var. Preambula hissəsində qeyd edildiyi kimi, birincisi, tarixi yaddaşımızın bütövlüyü baxımından bu faciəni xatırlamağımız vacibdir. İkincisi, milli identikliyimizin, milli bənzərliyimizin qorunması baxımından bu, mühüm bir hadisədir. Üçüncüsü isə müasir siyasi gerçəkliklər müasir siyasi reallıqlarda siyasi maraqlarımızın uzlaşdırılması baxımından mühüm hadisədir. Ona görə də mənə elə gəlir ki, bu hadisə təkcə Azərbaycanın inzibati, siyasi sərhədləri içərisində qeyd edilməməlidir.

Sosioloq Furman deyir ki, xalqları böyük faciələr və böyük qələbələr birləşdirir. Biz öz faciə tariximizdə necə birləşdiksə, öz qələbə tariximizdə də birləşdik.

Amma bu gün yeni reallıqda qarşımızda duran milli vəzifələr təkcə inzibati, siyasi coğrafiyamıza deyil, bütövlükdə, tarixi-etnik, mədəni coğrafiyamızda milli identikliyimizi, milli bənzərliyimizi bərpa etməkdir. Ona görə də 1918-ci ildə Azərbaycanda baş verən bu hadisələrə paralel olaraq biz yad etməliyik ki, dost və qonşu İran ərazisində, Səlmasda, Makuda, Xoyda, Urmiyada da ermənilər azər-

baycanlılara və müsəlmanlara qarşı soyqırımı törətdilər. Eyni hadisəni dost və qardaş Türkiyənin ərazisində – Ağrıda, Qarsda, Ərzincanda, Ərzurumda, Vanda da törətdilər. Özü də bu, təkcə azərbaycanlılara, türklərə qarşı deyil, bütün müsəlmanlara, lazlara, kürdlərə, ləzgilərə, avarlara, yəhudilərə qarşı idi.

Bugünkü bütün siyasi çağırış kontekstində bu tezisin əhəmiyyəti ondan ibarətdir ki, vaxtı ilə bizə qarşı soyqırımı törədən o mərkəzlər indi həmin xalqlarla bizi düşmən etməyə çalışırlar. Son günlərdə Urmiyada baş verən hadisələr buna əyani sübutdur. Ona görə mən düşünürəm ki, biz daha geniş arealda və daha böyük strateji məqsədlər üçün bu tarixi günü qeyd etməliyik və bunun maarifləndirmə işini aparmalıyıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Azər Badamov. Azər müəllim, buyurun.

**Azər Badamov.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, dünən Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı anım tədbirləri keçirildi. 1992-ci ildə Xocalıda törədilmiş soyqırımı ilə 1918-ci ildə törədilmiş soyqırımları eyni vəhşiliklə həyata keçirilmişdir. Bu, 1918-ci ildən 74 il keçməsinə baxmayaraq, erməni təfəkkürünün mahiyyətinin dəyişmədiyini göstərir. Martın 31-də keçirilən anım tədbirləri xalqımızın tarixi yaddaşını qorumaq, gələcək nəsillərə ötürməklə beynəlxalq ictimaiyyəti məlumatlandırmaq baxımından vacibdir.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti 44 gündə ərazilərini düşmən işğalından azad etməklə regionda yeni reallıq yaratdı, həm də uzun illər tapdalanmış ədaləti bərpa etdi. Bu gün azad olunmuş ərazilər sürətlə yenidən qurulur. Qısa zaman kəsiyində

keçmiş məcburi köçkünlərin 13 yaşayış məntəqəsinə qayıtması və onların öz doğma ata yurdlarında həyatlarına davam etməsi dövlətimizin gücünü göstərir. Təbii ki, Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsi yenidən qurulub cənnətə çevriləcəkdir.

Hörmətli həmkarlar, biz müharibənin başa çatdığı ilk gündən sülh və əməkdaşlıq içində yaşamaq üçün Ermənistana çağırış etdik. Çünki biz Cənubi Qafqazı sülh və əməkdaşlıq regionu kimi görürük. Amma düşmən özünü sülhsevər kimi təqdim edərək beynəlxalq ictimaiyyəti aldadır və müxtəlif tribunalardan istifadə etməklə çirkin niyyətlərindən əl çəkmir. Belə ki, Almaniyanın "Deutsche Welle" kanalında nümayiş etdirilən filmi və Prezident Frank Valter-Ştaynmayerin Cənubi Qafqaza səfəri çərçivəsində "İnstagram" səhifəsində nümayiş etdirilən əski parçası heç də təsadüfdən irəli gəlməyib. Bu, Ermənistanın "bacısı" Fransanın və onun təsiri altında olanların Azərbaycana olan münasibətinin göstəricisidir. Əgər onlar beynəlxalq hüququ və ədaləti dəstəkləsəydilər, 1 milyon qaçqınımızın və məcburi köçkünümüzün yaşadığı acı taleyini, yerlə yeksan edilmiş 300-dən çox yaşayış məntəqəmizin məhv edilməsini televiziya kanallarında nümayiş etdirərdilər.

Təbii ki, biz heç kimdən nə inciməli, nə də nə isə gözləməliyik. Biz bilirik ki, nə qədər ədalətli niyyətdən çıxış etsək də, bizə qarşı ikili standartlardan yanaşmalar davam edəcəkdir. Ona görə də bizim yeganə yolumuz daxili və xarici düşmənlərimizə bir daha fürsət verməmək üçün dövlət başçımızın ətrafında birləşmək və vətən üçün mübariz olmaqdır. Çünki ancaq güclü Azərbaycan dövləti hayların arxasında dayanaraq regiona sülhün və əmək-

daşlığın gəlməsinə mane olanlara da öz ədalətli mövqeyini qəbul etdirəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz gündəliyimizin məsələlərinə keçək. Xatırladım ki, gündəliyimizdə 15 məsələ var. Onu da deyim ki, gündəliyin ilk 4 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. İndi 1-ci məsələyə keçirik. Bu məsələ "Nəqliyyat haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Azər müəllim Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi ilə bağlı həm birinci, həm də ikinci oxunuşlarda ətraflı məlumat verilmişdir. Həmkarlarımız tərəfindən hər iki oxunuşda hər hansı bir təklif, qeyd irəli sürülməmişdir və layihənin mətnində də hər hansı bir dəyişiklik edilməyib. Layihənin üçüncü oxunuşda da qəbul edilməsini komitə olaraq məqsədəuyğun hesab edirik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Buyurun, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.32 dəq.) |
|---|---|
| Lehinə | 109 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələmiz “Təhsil haqqında” və “Peşə təhsili haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Elm və təhsil komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Anar müəllim İsgəndərova söz vermək istəyirəm. Anar müəllim, buyurun.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, qanun layihəsinin üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.32 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul

edildi.

3-cü məsələmiz "Feldyeger rabitəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələ haqqında məlumat vermək üçün komitə sədrinin müavini hörmətli Elşən Musayevə söz verirəm. Elşən müəllim, buyurun.

**Elşən Musayev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Çox hörmətli xanım sədr, birinci və ikinci oxunuşlarda layihə barədə ətraflı məlumat vermişəm. Komitəyə heç bir irad və təklif daxil olmayıb. Ona görə də üçüncü oxunuşda mətnin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.33 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Konstitusiya Məhkəməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu bizim gündəliyimizin 4-cü məsələsidir. Layihəyə Hüquq

siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nizami Səfərova söz vermək istəyirəm. Nizami müəllim, buyurun.

**Nizami Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar, qanun layihəsi mətnində heç bir dəyişiklik edilmədən diqqətinizə təqdim edilmişdir. Üçüncü oxunuşda qəbul olunmasına səs verməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələlərə keçirik. Növbəti 7 məsələ ikinci oxunuşda olan qanun layihələridir. 5-ci məsələ Əmək Məcəlləsində və daha 5 məcəllədə, “Sosial sığorta haqqında” Qanunda və digər 12 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Musa

müəllim Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, Əmək Məcəlləsinə və digər 17 qanunvericilik aktına təklif olunan dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT Konvensiyasının terminlərinin bizim milli qanunvericiliyə gətirilməsi məqsədi ilə hazırlanmışdır.

Birinci oxunuşda qanun layihəsinin mahiyyəti haqqında ətraflı məlumat verilmişdir. İkinci oxunuş zamanı komitəyə əlavə təkliflər və iradlar daxil olmamışdır. Layihənin mətnində dəyişiklik yoxdur. İkinci oxunuşda olduğu kimi səsə qoymağınızı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, xatırladım ki, bu qanun layihəsinə 5 ayrı komitədə də baxılmışdır. Mən indi komitə sədrlərindən xahiş edəcəyəm ki, komitənin rəyini bildirsinlər. Birinci Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Ona görə də hörmətli Əli müəllim Hüseynliyə söz vermək istəyirəm. Əli müəllim, komitənin rəyini bildirin. Buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hüquq siyasəti və dövlət quruculuğu komitəsi profilimizə aid olan layihələrlə bağlı müsbət rəy vermişdir. Xahiş edirəm, nəzərə alasınız. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Qanun layihəsinə Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılmışdır. Hörmətli Hicran xanım,

məlumat verin. Buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, komitəmizin qanun layihəsi ilə bağlı rəyi müsbətdir. Əlavə rəy və təklif daxil olmamışdır. Komitə iclasında ikinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir.

**Sədrlik edən.** Çox sağ olun.

Azər müəllim, sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, təqdim edilmiş qanun layihəsinə rəyimiz müsbətdir. Layihənin ikinci oxunuşda da dəstəklənməsini məqsədəuyğun hesab edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Səhiyyə komitəsinin rəyini bilmək üçün mən hörmətli Əhliman müəllim Əmiraslanova söz vermək istəyirəm. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, Səhiyyə komitəsinin də qanun layihəsi ilə bağlı rəyi müsbətdir. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** İnsan hüquqları komitəsinin rəyini bilmək üçün komitənin sədri hörmətli Zahid Oruca söz vermək istəyirəm. Buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli sədr. Cari məsələlər zamanı hər saniyənin hökmü olur deyə, bu məsələyə yer verə

bilmədik. Həm də 18 mart tarixli iclasımızdan və bay–ramlardan sonra bu bizim ilk iclasımızdır.

**Sədrlik edən.** Sağ olun. Zahid müəllim, zəhmət olmasa, bu qanun layihəsi ilə bağlı komitənin rəyini bildirin. Sonra imkan olsa, məsələni də deyərsiniz. O zaman mən gərək hamıya söz verəm. Buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, komitənin məsələ ilə bağlı rəyi müsbətdir. Xahiş edirəm, nəzərə alasınız. Amma icazə verin, mən Sizi təbrik edim. Mən qeyd etmək istərdim ki, bayramlara görə fasilə olduğu üçün bizim ilk iclasımızdır. Siz möhtərəm cənab Prezident tərəfindən yüksək dövlət təltifinə layiq görüldünüz. Ölkə rəhbəri Sizi şəxsən qəbul etdi, haqqınızda yüksək sözlər söylədi. Sizin cavab nitqinizdə deyildiyi kimi, bu, həqiqətən, parlamentin fəaliyyətinə verilən qiymətdir. Ona görə də Sizi həmkarlarımız adından ürəkdən təbrik edirik, can sağlığı arzulayırıq. *(Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun. Hamıya minnətdarlığımı bildirirəm. Zahid müəllim, amma biz qanun layihəsini müzakirə edirik. Məni də çaşdırırsınız.

Hörmətli həmkarlar, bildiyiniz kimi, biz ikinci oxunuşda qanun layihələrini əvvəlcə əsas kimi qəbul etməliyik. Ona görə də xahiş edirəm, bu qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, kim çıxış etmək istəyir? Müzakirəyə keçirik. Çıxış etmək istəyən yoxdur. Ona görə də biz səsverməyə keçirik.

Hörmətli həmkarlar, yenə də xatırladım ki, ikinci oxunuşdur, ona görə biz qanun layihəsinə əvvəlcə maddələr üzrə münasibət bildirməliyik. Bu qanun layihəsi 19 maddədən ibarətdir. Ona görə də mən onları üç-üç səsə qoyacağam. Xahiş edirəm, 1-ci, 2-ci və 3-cü məsələlərə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qəbul edildi.

İndi növbəti 3 maddəyə münasibət bildirin. 4-cü, 5-ci, 6-cı maddələrdir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

Bu maddələr qəbul edildi.

İndi isə 7-ci, 8-ci və 9-cu maddələrə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

10-cu, 11-ci, 12-ci maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 13-cü, 14-cü və 15-ci maddələr səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

4 maddəmiz qalır, hörmətli həmkarlar. Mən onların hamısını səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu 4 maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, növbəti məsələmiz "Kredit büroları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və

sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov**. Hörmətli sədr, hörmətli həmkarlar, təqdim edilmiş qanun layihəsinə görə, artıq bu dəyişikliklərdən sonra nisyə mal dövriyyəsi 100 min manatdan artıq olan sahibkarlıq subyektləri kredit tarixçəsini təşkil edən məlumatları kredit bürolarına məcburi qaydada deyil, könüllü qaydada təqdim edəcəklər. Artıq buna görə də hər hansı bir inzibati məsuliyyətə cəlb olunmayacaqlar. Layihənin mahiyyəti bundan ibarətdir.

Birinci oxunuşda həmkarlarımız tərəfindən hər hansı təklif, qeyd irəli sürülməmişdir və layihənin mətnində də hər hansı bir dəyişiklik edilməyib. Bu layihənin ikinci oxunuşda da dəstəklənməsini xahiş edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Çıxış etmək istəyən yoxdur, ona

görə səsverməyə keçirik. Bu qanun layihəsi 4 maddədən ibarətdir, onları iki-iki səsə qoyacağam. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddələr qəbul edildi.
İndi isə 3-cü və 4-cü maddələri səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.
İndi isə mən qanun layihəsini bütövlükdə ikinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Növbəti məsələmiz "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun, söz Sizindir.

**Sadiq Qurbanov**, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Birinci oxunuş zamanı deputat həmkarlarıma ətraflı məlumat verildi. Mətndə dəyişiklik yoxdur. İkinci oxunuşda da dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, xahiş edirəm, layihəyə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. İki nəfər yazılıb. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli

xanım sədr, hörmətli millət vəkilləri, mən də qanun layihəsini dəstəkləyirəm və səs verəcəyəm. Qanun layihəsi həm enerji səmərəliliyi, həm də enerji keçidi baxımından vacib layihədir. Bütün bunlarla yanaşı, mən ikinci oxunuşun tələblərinə uyğun olaraq, çox qısaca bir təklifi təqdim etmək istərdim. Qanun layihəsi 17-ci maddədə dəyişiklikləri özündə ehtiva edib. Belə ki, 17.2.1-ci maddədə 60 Volt və daha yuxarı gücə malik olan közərmə lampalarının 2026-cı il yanvarın 1-dən, eyni zamanda, məhz 25 Volt-dan yüksək olan 60 Volt-a qədər olanların isə 2026-cı il iyunun 1-dən etibarən ölkəyə idxalı, istehsalı və satışı qadağan edilir. Müəyyənləşdirilmiş müddət həm 2026-cı il yanvarın 1-i, eyni zamanda, 2026-cı il iyulun 1-dir, yəni müəyyən müddət var. Həmin müddətdə, təbii ki, idxal, istehsal və satış davam etdiriləcək. Qanun layihəsi istehlakı qadağan etmir.

Növbəti müddətdə ölkəyə bu lampaların idxalının tənzimlənməsi üçün mən təklif etmək istərdim ki, qanun layihəsində idxal üçün qeyd edilən müddətədək kvotalar müəyyənləşsin, çünki bu kvotaların müəyyənləşməsi nəticə etibarı ilə məhz aralıq müddətində, yəni keçid müddətində idxalın tənzimlənməsinə və praktik olaraq qanun qüvvəyə mindikdən sonra istehlakın tənzimlənməsinə gətirib çıxara bilər. O baxımdan təklif etmək istərdim ki, 17-ci maddəyə 17.2.3-cü maddə əlavə olunsun və həmin dəyişikliklə qeyd edilən müddətdə idxalla bağlı kvotalar müəyyənləşsin. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Mən də təqribən eyni təklifi edəcəkdim. Vüqar müəllimə

təşəkkür edirəm ki, o fikri səsləndirdi. Qanunda dəyişiklik cəmi bir fikirlə bağlı olsa da, çox əhəmiyyətli bir dəyişiklikdir. Bu onu göstərir ki, Azərbaycan enerjidən səmərəli istifadə etməkdə qətiyyətlidir, hətta bunu qanun səviyyəsinə qaldırır. Baxmayaraq ki, Azərbaycan bu gün istehlak etdiyindən daha çox elektrik enerjisi istehsal edir. Bu gün cənab Prezidentimizin vaxtaşırı bu və ya digər regiona, xüsusən işğaldan azad olunan ərazilərə səfəri zamanı biz enerji obyektlərinin açılışını görürük və bu bizi sevindirir.

Bu gün işğaldan azad olunan zonada yaşıl enerjinin istehsalına böyük diqqət edilir. Energetiklər söhbət zamanı bildirdilər ki, həmin zonada ancaq yaşıl enerji istehsal olunur və istehsal edilən enerji istehlak edilən enerjinin səviyyəsindən çoxdur. Nəzərdə tutulub ki, əhali, məskunlaşma artdıqca yeni enerji obyektlərinin açılışı da həyata keçiriləcək.

Qeyd edim ki, cənab Prezidentin enerji sahəsində apardığı siyasət bu gün Azərbaycanın tələblərinə cavab verir. Azərbaycanda sənaye durmadan inkişaf edir, xidmət obyektlərinin sayı artır və buna uyğun olaraq, yeni enerji obyektlərinin təhvili də olduqca vacibdir. Bu siyasətin həyata keçirilməsində dövlət şirkətləri olan "Azərenerji" və "Azərişıq" səmərəli fəaliyyət göstərirlər. Onlara öz təşəkkürümü bildirmək istəyirəm. Bu gün Azərbaycan təkcə öz daxili tələbatı üçün deyil, eyni zamanda, Cənubi Avropanın 4 ölkəsinə də enerji istehsal edir.

Avropa demişkən, bu gün Almaniyanın Prezidenti Azərbaycana səfərə gəlir. Bir gün əvvəl onun qonşu ölkəyə səfəri zamanı sosial şəbəkədə ölkəmizlə bağlı bizim hissiyyatımıza, suverenliyimizə toxunan fikir bildir-

məsi, əlbəttə ki, Azərbaycan ictimaiyyətini, ilk növbədə dövləti bu məsələyə münasibət bildirməyə məcbur etdi. Ancaq bununla belə bu gün Almaniya Prezidenti Administrasiyasının Azərbaycandan üzr istəməsi onu göstərir ki, Almaniya min illərlə əldə etdiyi dövlətçilik təcrübəsindən irəli gələrək öz adını qorumaqda maraqlıdır. Almaniyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi fikrini həmin üzrxahlıqda göstərməsi Almaniyanın böyüklüyüdür. Biz Almaniya Prezidentinə "Azərbaycana xoş gəldin" deyirik. Eyni zamanda, şübhəsiz ki, Almaniya tərəfi bu səfər ərəfəsində bu təxribatın kim tərəfindən törədildiyini, təşkil olunduğunu hər halda araşdıracaqdır.

Təəssürat yaranır ki, bu gün iki Avropa var. Üzr istəməyi bacaran, ərazi bütövlüyünə hörmətlə yanaşdığını dəfələrcə bildirən Almaniya və vaxtaşırı Azərbaycanın daxili işlərinə qarışan, Azərbaycana şər, böhtan atan Avropa Parlamenti. O parlament ki orada Azərbaycanla bağlı qəbul edilən qərarlar, qətnamələr onun səlahiyyətinə daxil deyil. Biz Avropa Birliyinin üzvü deyilik və Avropa Parlamentinin bütün səlahiyyətləri ancaq Avropa Birliyinə daxil olan ölkələrə aiddir. Mən sual edirəm: Avropa Parlamentinin də Azərbaycandan üzr istəmək zamanı deyilmi? Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Aydın müəllim. Hamımız, təbii ki, Sizin dediklərinizlə razıyıq. İkinci oxunuşla bağlı Vüqar müəllimin təklifləri ilə razısınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Asif Əsgərov. Buyurun.

**Asif Əsgərov**. Çox hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, hörmətli media mənsubları. Bu gün biz "Enerji resurslarından səmərəli istifadə və enerji effektiv-

liyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini müzakirə edirik. Hesab edirəm ki, qanun layihəsi ölkəmizin dayanıqlı enerji siyasətinin əsas prinsiplərini gücləndirəcək, enerji səmərəliliyinin artırılmasına əvəzsiz töhfə verəcək mühüm bir addımdır. Məlumdur ki, Azərbaycan qlobal enerji bazarında strateji mövqeyə malikdir. Eyni zamanda, müasir qlobal ekoloji çağırışları nəzərə alaraq yaşıl enerji keçidini prioritet istiqamət kimi qəbul etmişik. Bu kontekstdə dekarbonizasiya, enerji effektivliyi, aşağı karbon layihələrinin genişləndirilməsi, habelə bərpa olunan enerji mənbələrinin inkişafı ölkəmizin uzunmüddətli iqtisadi və ekoloji dayanıqlılığını təmin edəcək əsas faktorlar sırasındadır.

Enerji keçidi təkcə ekoloji məsələ deyil, bu, həm də iqtisadi və strateji məsələdir. Məhsul istehsalına düşən enerji sərfini azaltmaq, enerji effektivliyini təmin etmək bu sahədə xərclərin optimallaşdırılmasına və ölkəmizin enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət edəcəkdir. Azərbaycanın sənaye sektoru üçün bu texnoloji modernləşmə və optimallaşdırma dayanıqlı inkişafın təmin edilməsi baxımından mühüm bir çağırışdır. Xüsusi ilə işğaldan azad edilmiş ərazilərdə – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl enerji konsepsiyasının həyata keçirilməsi baxımından bu, misilsiz bir fürsətdir. Bu, həm də Azərbaycan Respublikasının Nazirlər Kabinetinin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022–2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"nın effektiv icra edilməsində mühüm rol oynayacaqdır.

Qeyd olunanlardan əlavə, bu qanun layihəsinin qəbulu ölkəmizin Paris Sazişi çərçivəsində götürdüyü öhdəliklərə də öz töhfəsini verəcəkdir. Bütün bunlar ölkəmizdə aparılan enerji siyasətinin əsas hədəflərindəndir. Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə istiqamətində aparılan tədbirlər dövlətimizin başçısının diqqət mərkəzindədir. Enerji resurslarından səmərəli və qənaətlə istifadə edilməsinə lazımi şəraitin yaradılması mühüm amilə çevrilir. Prezident İlham Əliyev ölkə iqtisadiyyatının və əhalinin enerji resurslarına olan tələbatının daha dolğun ödənilməsini təmin etmək üçün ardıcıl və qətiyyətli addımlar atıb.

Hörmətli həmkarlar, biz Azərbaycanın enerji siyasətini modernləşdirərək onu daha ekoloji, daha səmərəli və daha innovativ bir istiqamətə yönəltməliyik. Bu qanun layihəsi bu hədəfə doğru atılmış vacib addımdır. Bu təşəbbüslər özündə böyük bir potensial daşıyır. Hesab edirəm ki, yeniliklərin qəbul edilməsi ilə ölkəmizdə enerji sektorunda islahatlar dərinləşəcək, daha səmərəli, institusional mühit formalaşacaq. Bu baxımdan dövlət-özəl sektoru beynəlxalq tərəfdaşlarla birlikdə Azərbaycanın enerji sektorunda dayanıqlı və innovativ inkişafı təmin etmək üçün birlikdə çalışmalıdır. Son olaraq düşünürəm ki, həyata keçirilən bu işlər ölkəmizin daha parlaq gələcəyə doğru strategiyasının əhəmiyyətli bir komponentinə çevrilməsində öz sözünü deyəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Asif müəllim.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Bilirsiniz ki, birinci, maddələrə görə səs verməliyik. Layihədə 1 maddə var. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə qəbul edildi.

İndi isə mən bu qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti 8-ci məsələmiz Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında" Qanunda və digər 9 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, təqdim edilmiş qanun layihəsi ilə bağlı birinci oxunuşda təqdimat zamanı geniş, ətraflı məlumat veril-

mişdir. Qısaca bir daha xatırlatmaq istərdim ki, bu qanun layihəsi 11 normativ hüquqi aktda dəyişiklik edilməsini nəzərdə tutur və bu, leqallaşdırmaya qarşı milli fəaliyyət planının icrasından irəli gəlir. Milli fəaliyyət planında qeyd edilirdi ki, benefisiar mülkiyyətçilərə dair mərkəzləşdirilmiş informasiya bazasının yaradılması nəzərdə tutulur. Təqdim edilmiş qanun layihəsi də belə bir informasiya bazasının hüquqi əsaslarının formalaşdırılmasına xidmət edir. Həmçinin belə bir qanun layihəsi beynəlxalq maliyyə təhlükəsizliyinin təmin edilməsi missiyasını həyata keçirən FATF Beynəlxalq Təşkilatının 24-cü və 25-ci tövsiyələrindən irəli gəlir.

Birinci oxunuşda təqdimat zamanı həmkarlarımız tərəfindən hər hansı təklif, qeyd irəli sürülməmişdir. Layihənin mətnində də hər hansı bir dəyişiklik edilməyib. Bu baxımdan bu layihənin ikinci oxunuşda da dəstəklənməsini xahiş edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsinə ikinci komitədə – Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Əli müəllim, bu gün özünüz məlumat verirsiniz? Buyurun. Əli Hüseynli.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Mən birinci oxunuşda məlumat vermişdim. Hörmətli həmkarım Azər müəllimlə də bizim görüşümüz olmuşdu. Bizim komitənin də profilinə aid olan layihələrdə mövqeyimiz müsbətdir. Müsbət rəy vermişik.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb, ona görə biz səsverməyə keçirik. Birinci səsvermə maddələr üzrə olacaq. Bu qanun layihəsi 12 maddədən ibarətdir. Mən onları üç-üç səsə qoyacağam. Xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi mən 4-cü, 5-ci və 6-cı maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə xahiş edirəm, növbəti üç maddəyə – 7-ci, 8-ci və 9-cu maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Xahiş edirəm, son üç maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, qanun layihəsinə bütövlükdə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Qanun layihəsi bu gün cəmiyyətdə müzakirə olunan aktual məsələlərdən biridir. Qeyd edildiyi kimi, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin maddəsində dəyişikliklə bağlıdır. Həqiqi hərbi xidmətdən ehtiyata və istefaya buraxılan hərbi geyim formasını daşımaq hüququ ilə əlaqədardır. Orada müəyyən məhdudiyyətlər, eyni zamanda, tövsiyələr öz əksini tapıb.

Birinci oxunuşda plenar iclasda müzakirə olunub. Heç bir əlavə təklif, rəy yoxdur. Komitəmizdə baxılaraq ikinci oxunuş üçün plenar iclasa tövsiyə olunmuşdur. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 100 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Hörmətli Ziyafət müəllim Əsgərov söz istəmişdi. Ziyafət müəllim, buyurun.

**Ziyafət Əsgərov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hörmətli Arzu müəllim, bu qanun layihəsinə, sözsüz ki, səs verib qəbul edəcəyik. Mən xahiş edərdim, dilçilərlə məsləhətləşərdiniz. "Hərbi geyim formasını daşımaq hüququ". Hərbi geyim forması daşınar, yoxsa geyinilər? Mən başa düşürəm, bu, rus dilindən gəlir: "ношение военной формы". Amma Azərbaycan dilinin öz xüsusiyyətləri var. Bununla bağlı məsləhətləşmək lazımdır.

İkincisi. İkinci oxunuşdur. Yeri gəlmişkən, biz "Konstitusiya Məhkəməsi haqqında" Qanunu artıq təsdiq etdik. Hörmətli Nizami müəllimdən də xahiş etmişdim. "70 rəqəmlər" ifadəsi "70 rəqəm" olar, "rəqəmlər" olmaz. Yaxud "75 rəqəmləri" deyil, "75 rəqəmi" olmalıdır. Xahiş edirəm, bunu nəzərə alasınız. Mən baxdım, yenə belə qalıbdır. Hər halda dilçilərlə məsləhətləşməyinizi xahiş edirəm. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ziyafət müəllim, bəs əvvəlki qanunlarda belə deyildi?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bunu nəzərə almaq lazımdır.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, mən də qanun layihəsini dəstəkləyirəm. Sadəcə, ikinci oxunuşun tələblərinə uyğun olaraq, bu gün müzakirə etdiyimiz qanun layihəsi ilə bağlı bir məqamı təklif etmək istərdim. Belə ki, qanun layihəsinə əsasən hərbi geyim formasını daşımaq hüququ məhz peşə bayramlarında, dövlət tədbirlərində, eyni zamanda, Silahlı Qüvvələr Günü, Zəfər Günü və Anım Günündə mümkün olacaq. Mən təklif etmək istərdim ki, bura Dövlət Suverenliyi Günü də əlavə olunsun. Nəzərə alsaq ki, cənab Prezidentin sərəncamı ilə sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi qeyd olunur. O baxımdan hərbi geyim formasının Silahlı Qüvvələr, Zəfər və Anım günləri ilə yanaşı, eyni zamanda, Dövlət Suverenliyi Günü də daşınmasının mümkün olmasını təklif edərdim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Arzu müəllim, çıxış etmək istəyirsiniz? Buyurun.

**Arzu Nağıyev.** Hörmətli Vüqar müəllimin təklifinə fikir bildirmək istəyirəm ki, qanun layihəsində belə də yazılıb: “Azərbaycan Respublikasının dövlət orqanları, qurumları tərəfindən təşkil olunan tədbirlərdə”. Düşünürəm ki, Dövlət Suverenliyi Günü ilə əlaqədar da tədbir təşkil olunduğuna görə həmin forma geyinilə bilər. Bu, birinci məsələ. Yəni bu, qanunda nəzərdə tutulub.

İkinci, hörmətli Ziyafət müəllimin dediyi məsələ. Ehtiyatda və ya istefaya buraxılarkən hərbi geyim formasını “geyinmək hüququ” ifadəsi... Ümumiyyətlə, hərbidə “geyinmək” sözü yoxdur. Bu, forma daşımaqdır. Bu, əvvəlki qanunlarda da belə olub. Təkrar-təkrar geyinmək...

**Sədrlik edən.** Mən ona görə soruşdum ki, əvvəlki

qanunlarda bu söz birləşməsi var idimi? Mən düşünürəm ki, bu, söz birləşməsi kimi belə qəbul olunur. Ancaq yenə də təklif var və xahiş edirəm, bu təklifi nəzərə alasınız. Müzakirə olunmalıdır.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsinin maddələr üzrə səsvermə proseduruna keçirəm. Xahiş edirəm, münasibət bildirək. Qanun layihəsi 1 maddədən ibarətdir. Ona görə də həmin maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. “Dövlət rüsumu haqqında” və “Lisenziyalar və icazələr haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, mən yenə də sözü Sizə verirəm. Xahiş edirəm, məlumat verin. Buyurun.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, qanun layihəsi ilə bağlı birinci oxunuşda geniş, ətraflı məlumat verilmişdir. Bir daha xatırlatmaq istərdim ki, qanun layihəsinə əsasən yanacaqdoldurma fəaliyyəti lisenziyalaşdırılan fəaliyyət növünə aid edilir. Belə bir lisenziyanın alınmasına görə də dövlət rüsumu tətbiq olunur.

Birinci oxunuşda hər hansı təklif, qeyd irəli sürülməmişdir. Bu layihənin ikinci oxunuşda da dəstəklənməsini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Biz qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---:|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Heç kim çıxışa yazılmayıb, ona görə səsverməyə keçirik. Qanun layihəsi 3 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| --- | --- |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| --- | --- |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.

3-cü maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| --- | --- |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

Mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Mən birinci oxunuşda bu layihə barədə geniş məlumat vermişdim. Yəni yazılı arayışdan da kənar olan məlumatları hörmətli həmkarlarımın diqqətinə çatdırmışdım.

Bu layihənin bir hissəsi artıq qəbul etdiyimiz gündəlikdə olan 8-ci, 9-cu və 10-cu məsələlərdən irəli gəlir. Amma böyük bir hissəsi aviasiya təhlükəsizliyinə həsr olunub. Onun isə meydana gəlmə səbəbi "Aviasiya haqqında" 2023-cü ildə qəbul etdiyimiz Qanunun tələbləridir və Beynəlxalq Mülki Aviasiya Təşkilatının tövsiyələridir ki, biz onları icra edirik. Hesab edirəm ki, aviasiya təhlükəsizliyi baxımından çox əhəmiyyətli layihədir.

Birinci oxunuşda həmkarlarımız dəstəkləyib. İkinci

oxunuşda da səs verilmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, ikinci oxunuşdur. Əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Vasif Qafarov. Buyurun.

**Vasif Qafarov.** Hörmətli sədr, hörmətli həmkarlar, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliyə əsasən Cinayət Məcəlləsinin 156.2.2-ci maddəsində əksini tapan "məsafədən idarə edilən pilotsuz uçan aparatlardan" sözlərinin "pilotsuz uçuş aparatlarından" sözləri ilə əvəz olunması təklif olunmuşdur. Cinayət Məcəlləsinin 156.2-ci maddəsinə nəzər salsaq, görərik ki, adıçəkilən maddə məsafədən idarə edilən pilotsuz uçan aparatlardan istifadə etməklə şəxsi və ailə həyatının sirri olan məlumatların, habelə belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının yayılmasını qadağan edir. Burada müvafiq məlumatların əldə olunmasının məsafədən idarə edilən yalnız pilotsuz uçan aparatlardan istifadə edilməklə törədilməsi nəzərdə tutulmuşdur. Məsafədən idarə edilən digər qurğular isə nəzərdə tutulmamışdır.

Həmin maddənin məzmununda müvafiq əməllərin

məsafədən idarə edilən digər qurğu və aparatlardan istifadə edilməklə törədilməsinin qadağan olunmaması adıçəkilən normanın düzgün və ədalətli tətbiq edilməsini istinad edir.

Layihədə əksini tapan təklifin də qeyd olunan məsələni tam əhatə etmədiyini nəzərə alsaq, müvafiq normanın tətbiqində yenə də boşluqların olması istisna edilmir. Bu baxımdan sözügedən təklifə yenidən baxılmasını və məsafədən idarə edilən uçan aparatlarla yanaşı, digər qurğuların mövcudluğu da nəzərə alınaraq adıçəkilən maddəyə müvafiq dəyişikliklərin edilməsini məqsədəuyğun hesab edirəm.

Həmçinin Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının qanun layihəsində 296-cı maddənin adında "təhlükəli maddələr və predmetlər" sözlərinin "təhlükəli yüklər, hərbi silah və sursatlar" sözləri ilə əvəz edilməsi, adıçəkilən məcəllənin 296.2-ci maddəsinin aşağıdakı redaksiyada verilməsi göstərilmişdir: "Təhlükəli yüklərin, hərbi silah və sursatların daşınma qaydalarının pozulmasına görə təhlükəli yüklər, hərbi silah və sursatlar müsadirə edilməklə və ya edilməməklə fiziki şəxslər 250 manat məbləğində, vəzifəli şəxslər 500 manatdan 1500 manatadək məbləğdə cərimə edilir". Göründüyü kimi, maddənin adında və məzmununda "hərbi silah və sursat" ifadələrinin istifadə olunması təklif edilmişdir.

Nəzərə alınmalıdır ki, "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində hərbi silah anlayışı deyil, silah, xidməti silah, mülki silah, döyüş silahı, döyüş sursatı və sair bu kimi anlayışlardan istifadə olunmuşdur. Odur ki, qanunvericilikdə eyni

mənada müxtəlif anlayışların mövcudluğuna, həmçinin qanunların ziddiyyətli təfsirinə yol verilməməsinə görə sözügedən məsələyə yenidən baxılmasını məqsədəmüvafiq hesab edirəm.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Əli müəllim, buyurun, yazılmısınız.

**Əli Hüseynli.** Təşəkkür edirəm, hörmətli sədr. Vasif müəllim, təkliflərə görə təşəkkür edirəm.

Sonucu təklifdən başlayım. “Xidməti və mülki silah haqqında” Qanunda, əlbəttə ki, hərbi silah anlayışı verilməyib, çünki hərbi silah anlayışı hərbi qanunvericilikdədir. Bu baxımdan 296.2-ci maddə, hesab edirəm ki, tamamilə yerindədir.

O ki qaldı pilotsuz uçuş aparatları ilə bağlı olan təklifə. Vasif müəllim, dediniz ki, tətbiqində problem yaranır. Bu qanun layihəsi hələ tətbiq olunmayıb. Onu da deyim ki, elə onu tətbiq edən orqanlar bu təklifi irəli sürüblər. Təklifin də mahiyyəti bizim indiki normativ sənədlərdə “məsafədən idarə edilən pilotsuz uçuş aparatları” əvəzinə “pilotsuz uçuş aparatı” ifadəsinin verilməsidir. Bununla demək istəyirəm ki, qanunvericilik təşəbbüsü subyektinə verəcəyimiz hər hansı bir təklifimiz olmamalıdır.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirəm. Qanun layihəsi 3 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 104 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.
Mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi. Çox sağ olun.
3-cü maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

3-cü maddə də qəbul edildi.
İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|

| | |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyimizdə 4 məsələ qalır. Bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Yenə də xahiş edirəm, çıxışlarda birinci oxunuşun tələblərini nəzərə alasınız. 12-ci məsələ "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və digər 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Ona görə mən yenə də komitənin sədri Azər müəllimdən xahiş edəcəyəm. Azər müəllim, buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, təqdim edilmiş qanun layihəsi 4 normativ hüquqi aktda dəyişiklik edilməsini nəzərdə tutur. Qanun layihəsinin məqsədi nədən ibarətdir? Əsas məqsəd keyfiyyətə nəzarət sahəsində rəqəmsallaşmanın həyata keçirilməsi məqsədi ilə vahid elektron informasiya sisteminin hüquqi bazasının yaradılması, bu sahədə elektron xidmətlərin tətbiqi yolu ilə prosedurların optimallaşdırılması, ölçmə, texniki tənzimləmə və uyğunluğun qiymətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və xidmətlərin şəffaflığının artırılması ilə bağlıdır.

Qanun layihəsinin hazırlanması iki mühüm sənədin icrasından irəli gəlir. Belə ki, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi İnkişaf Strate-

giyası"nda keyfiyyətə nəzarət sahəsində göstərilən xidmətlərin rəqəmsallaşdırılması və vahid elektron portalının yaradılması nəzərdə tutulur. Eyni zamanda, "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı"nda texniki tənzimlənmə və standartlaşdırma üzrə vahid elektron informasiya sisteminin yaradılmasına dair vəzifə müəyyən edilib.

Qanun layihəsi ilə yaradılması nəzərdə tutulan vahid elektron informasiya sistemi keyfiyyət infrastrukturu sahəsində fəaliyyət göstərən akkreditasiya edilmiş səlahiyyətli qurumlar tərəfindən təqdim edilən hüquq müəyyənedici sənədlərin, yəni sertifikatların, şəhadətnamələrin, bildirişlərin elektron formada vahid elektron platforma üzərindən qeydiyyatının və reyestrinin aparılmasını və bu sənədlərin verilməsini, keyfiyyət təminatı sahəsində fəaliyyətlərin rəqəmsallaşdırılmasını, bu sahədə mövcud pərakəndəliyin aradan qaldırılmasını təmin edəcək, maraqlı tərəflərə, yəni dövlət qurumlarına, sahibkarlıq subyektlərinə, vətəndaşlara keyfiyyətə nəzarət sahəsində həyata keçirilən fəaliyyətlərin nəticələrini asanlıqla izləmək imkanı yaradacaqdır. Eləcə də keyfiyyətə nəzarət sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, yeni anlayışların əlavə edilməsi, bəzi anlayışların dəqiqləşdirilməsi, tərəflər arasında yaranan münasibətlərin tənzimlənməsi, müvafiq qanunların normalarının uyğunlaşdırılması və sair nəzərdə tutulur.

Birinci oxunuşda bu layihənin dəstəklənməsini xahiş edirik. Bir daha qeyd etmək istərdik ki, bu layihənin özü də artıq ölkəmizdə elektronlaşmanın, elektron hökumətin fəaliyyət dairəsinin genişləndirilməsinin yeni bir mərhələsindən xəbər verir. Təşəkkür edirəm, hörmətli xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, çıxışa heç kim yazılmayıb. Mən məsələni səsə qoyuram. Buyurun, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ Ailə Məcəlləsində, Mülki Məcəllədə, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Qanunda və digər 5 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən hörmətli Hicran xanımdan xahiş edəcəyəm, məlumat versin. Hicran xanım, buyurun.

**Hicran Hüseynova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. İlk növbədə qeyd etmək lazımdır ki, uşaqların həyatı, onların hüquqlarının müdafiəsi, inkişafı hər zaman prioritetdir və dövlət siyasətinin tərkib hissəsidir. Azərbaycan Prezidentinin sərəncamları ilə “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı” və “Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı” təsdiq

edilmişdir. Bu sənədlərdən irəli gələrək yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi, eyni zamanda, uşaqların alternativ qayğı xidmətləri ilə əhatə olunması imkanlarının genişləndirilməsi nəzərdə tutulmuşdur. Bu sahədə çox güclü qanunvericilik bazasının olmasına baxmayaraq, yeni reallıqlar fonunda qanunlar qəbul edilir və mövcud qanunlara əlavə və dəyişikliklər olunur. Elə təqdim edilən qanun layihəsi də buna əyani misaldır.

Dəyişiklik təklif edilən qanunlarda uşaq hüquqlarının qorunması məqsədi ilə qəyyumluq və himayə orqanlarına bir sıra səlahiyyətlər verilir. Bu səlahiyyətlər çərçivəsində qəyyumluq və himayə orqanı uşaq maraqlarının, o cümlədən üzərində qəyyumluq və himayə təyin edilmiş uşaqların əmlak və digər hüquqlarının qorunması məqsədi ilə qərarlar qəbul edir.

Təklif olunan dəyişikliklər qəyyumluq və himayəçilik orqanlarının razılığı, icazəsi ilə əlaqədar həmin orqanların qərarlarının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilməsi və həmin sistem vasitəsi ilə əldə edilməsi məqsədi ilə hazırlanmışdır. Beləliklə, Ailə Məcəlləsində nəzərdə tutulan qəyyumluq və himayəçilik orqanlarının razılığı, icazəsi ilə əlaqədar həmin orqanların qərarları 1 iş günü ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın, yəni qurumun informasiya sisteminə daxil edilir. Həmin orqanların qərarları elektron hökumət informasiya sistemi vasitəsi ilə müvafiq icra hakimiyyəti orqa-

nının müəyyən etdiyi orqanın informasiya sistemindən əldə edilir. Belə sənədin elektron hökumət informasiya sistemi vasitəsi ilə əldə edilməsi mümkün olmadığı hallarda onun təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

Nəticədə dövlət xidmətlərinin göstərilməsi zamanı qəyyumluq və himayəçilik orqanlarının qərarlarının vətəndaşlardan tələb edilmədən informasiya sistemindən operativ qaydada əldə edilməsi ilə əhaliyə göstərilən dövlət xidmətləri təkmilləşəcək. Eyni zamanda, vətəndaşların həmin xidmətlərdən operativ və rahat formada istifadəsinə şərait yaradacaqdır.

Qanun layihəsi komitə iclasında birinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə olunmuşdur. Məlumatı nəzərə almağınızı xahiş edirik.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə daha üç komitədə baxılmışdır. Birinci, Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Komitənin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz vermək istəyirəm. Buyurun, Əminə xanım.

**Əminə Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyi müsbətdir. Nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

İnsan hüquqları komitəsinin rəyini bildirmək üçün, Zahid müəllim, Sizə söz verirəm. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm, hörmətli sədr. Uşaq

hüquqları ilə bağlı məsələyə bizim komitədə baxılıb. Rəy müsbətdir. Xahiş olunur, nəzərə alınsın. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Əmək və sosial siyasət komitəsinin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Nigar xanım Məmmədovaya söz verirəm. Nigar xanım, buyurun.

**Nigar Məmmədova,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox hörmətli xanım sədr, dəyərli həmkarlar, media nümayəndələri. Ailə Məcəlləsinə və daha 7 qanun layihəsinə təklif edilən dəyişikliklər müvafiq komitə iclaslarında, o cümlədən Əmək və sosial siyasət komitəsində birinci oxunuşda müzakirəyə çıxarılmışdır və mən layihənin sosial üstünlüklərinə diqqət çəkmək istərdim. Xüsusi ilə "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"nı qeyd etmək istərdim. Məhz bu proqramda da stasionar tipli qayğının tədricən alternativ xidmətlərə transformasiyasını müəyyən edən mexanizmin tətbiqi, habelə ölkədə himayədar ailə institutunun inkişafının zəruriliyi əksini tapıb. Artıq qeyd olunduğu kimi, dəyişikliklərin təklif olunduğu qanunlarda uşaq hüquqlarının qorunması məqsədi ilə qəyyumluq və himayə orqanlarına bir sıra səlahiyyətlər verilir.

Mən bu xüsusda elektron idarəetmənin qazandırdığı dividendlərə nəzər salmaq istərdim. Təcrübə göstərir ki, elektron hökumət sistemi hökumət və vətəndaşlar arasında etimadın qurulmasına, nəticə etibarı ilə isə şəffaflığın və hesabatlılığın təmin olunmasına zəmin yaradır. Elektron hökumətin üstünlüklərinə nəzər yetirək: bu sistem xidmətləri optimallaşdırmaq üçün uğurlu kommunikasiyanın

qurulmasına imkan yaradır, həmçinin inzibati prosesləri sadələşdirir, sənədləşmə işlərini minimuma endirir.

Sözügedən dəyişikliklər də bu sahədə fəaliyyətin elektron informasiya sistemi üzərindən daha operativ həyata keçirilməsinə yönəlmişdir. Burada həmçinin vaxta və maddi xərclərə qənaətdən söhbət gedir ki, bu da prosesin sürətlənməsini təmin edir, vətəndaş məmnunluğuna zəmin yaradır.

Həmçinin zəruri dövlət orqanları arasında müvafiq proseslərin sadələşdirilməsi bəzi mümkün risklərin qarşısını almış olacaq. Belə ki, gecikmə halları minimuma endiriləcək, eyni zamanda, elektron bazadan sənədlərin əldə edilməsi sayəsində uşaq hüquqlarının müdafiəsi ilə bağlı aidiyyəti qurumların vaxtında müdaxiləsi müvafiq riskləri aradan qaldıracaq.

Xüsusi ilə vurğulamaq istəyirəm ki, yeni dəyişikliklər etimadın artmasını təmin edəcək, qəyyumluq prosesinə müsbət təsir göstərəcək. Bununla yanaşı, təklif olunan dəyişikliklər dövlət tərəfindən monitorinq və nəzarət funksiyalarının gücləndirilməsinə töhfə verərək övladlığa götürən ailələrin də məsuliyyətini artıracaq. Beləliklə, normativ hüquqi baza daha da möhkəmlənəcək, aidiyyəti orqanların iş keyfiyyəti daha da artmış olacaq, nəticə etibarı ilə sui-istifadə hallarının da qarşısı alınacaq, həmçinin gələcəkdə bu sahədə yeni layihələrin icrası üçün təhlil aparmaq imkanı yaranacaq.

Mən həmkarları qanun layihəsinə səs verməyə çağırıram. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nigar xanım.

Çıxışa heç kim yazılmayıb. Mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət

bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 14-cü məsələyə keçirik. Bu, İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında" Qanunda və digər 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamran Bayramova söz vermək istəyirəm. Kamran müəllim, buyurun, məlumat verin.

**Kamran Bayramov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Müzakirəyə birinci oxunuşda çıxarılan qanun layihəsi İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişikliklərin edilməsini nəzərdə tutur. Dəyişikliklərin məqsədi məhkəmə və digər orqanların qərarlarının icrası sahəsindəki aparılan ödənişlərin yalnız nağdsız qaydada həyata keçirilməsindən ibarətdir. Layihəyə əsasən icra icraatı çərçivəsində pul vəsaitlərinin

depozit hesablar vasitəsi ilə ödənilməsinə və bu ödənişlərin nağd qaydada həyata keçirilməsinə görə inzibati məsuliyyətin müəyyən olunması nəzərdə tutulur.

Qanun layihəsinin qəbul olunması bu sahədə olan ödənişlərin həyata keçirilməsi ilə bağlı mümkün sui-istifadə hallarının qarşısının alınmasına xidmət edəcək. Hörmətli həmkarlardan layihənin dəstəklənməsini xahiş edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, bu məsələyə ikinci komitədə də, yəni İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Ona görə, Azər müəllim, mən sözü Sizə verirəm. Komitənin rəyini bildirin. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarım Kamran müəllim layihə ilə bağlı ətraflı məlumat verdi. Biz İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi olaraq, sadəcə, onu əlavə etmək istərdik ki, ölkəmizdə iqtisadi siyasətin əsas hədəflərindən, istiqamətlərindən biri həm də ölkə üzrə pul dövriyyəsinin strukturunda nağdsız hesablaşmaların payının xüsusi çəkisinin artırılmasından ibarətdir. Məhz bu qanun layihəsi də iqtisadi siyasətin bu hədəfinin reallaşdırılmasına xidmət edir.

Qanun layihəsini birinci oxunuşda dəstəkləyirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Çıxışa heç kim yazılmayıb. Hörmətli həmkarlar, ona görə də səsverməyə keçirik. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 106 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim sonuncu məsələmiz Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, mən Sizə söz verirəm. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, təqdim edilmiş qanun layihəsi Vergi Məcəlləsinə ayrıca xüsusi bir maddənin – 30.6.18-ci maddənin əlavə edilməsini nəzərdə tutur. Bununla bağlı məlumat verməzdən əvvəl biz 30-cu maddənin məzmununa diqqət yetirməliyik. 30-cu maddə "Kommersiya və vergi sirri" adlanır. Bu maddənin 30.1-ci yarımbəndində qeyd olunur ki, vergi orqanları, eyni zamanda, vəzifəli şəxslər vergi ödəyicilərinin məlumatlarının məxfiliyini qorumağa borcludurlar. Bu onların öhdəliyidir.

Bu baxımdan qurumlararası məlumat mübadiləsinin aparılması üçün Vergi Məcəlləsinə ayrıca bir xüsusi maddənin əlavə edilməsinə ehtiyac yaranır. Təqdim edilən qanun layihəsi də Dövlət Vergi Xidməti ilə Kənd Təsərrüfatı Nazirliyi arasında məlumat mübadiləsinin təmin edilməsinə yönəldilmişdir. Belə ki, Kənd Təsərrüfatı Nazirliyi Dövlət Vergi Xidmətindən iki mühüm məlumatı – elektron hesab faktura və elektron alış aktı məlumatlarını

almalıdır. Hər iki məlumat vergi sirri, kommersiya sirri hesab olunur. Məhz belə bir məlumat mübadiləsinin hüquqi əsaslarının yaradılması üçün Vergi Məcəlləsinə belə bir maddə əlavə olunur.

Həmçinin Kənd Təsərrüfatı Nazirliyinin əsas vəzifələrindən biri müəyyən olunmuş əsasnamə ilə dövlət tərəfindən kənd təsərrüfatına ayrılan subsidiyaların, büdcə vəsaitlərinin istifadəsinə, onların səmərəli xərclənməsinə effektiv nəzarəti həyata keçirməkdir. Eyni zamanda, kənd təsərrüfatına dövlət dəstəyinin səmərəli təşkilini təmin etməkdir. Məhz bu vəzifələrin səmərəli şəkildə icra edilməsi üçün Kənd Təsərrüfatı Nazirliyinə qeyd etdiyimiz iki məlumatın ötürülməsi tələb olunur.

Bu gün müzakirə etdiyimiz qanun layihəsi mahiyyətcə Dövlət Vergi Xidmətinin sərəncamında olan Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi ilə Kənd Təsərrüfatı Nazirliyinin sərəncamında olan "Elektron kənd təsərrüfatı" informasiya sistemi – EKTİS arasında bu məlumat mübadiləsinin aparılmasını təmin edəcəkdir.

Hesab edirik ki, bu, qurumlararası, həmçinin elektron hökumət çərçivəsi arasında qurumların məlumatlarının ötürülməsi dövlət informasiya sistemi çərçivəsində inteqrasiyanın həyata keçirilməsi baxımından çox mühüm, vacib olan bir layihədir. Birinci oxunuşda həmkarlarımız tərəfindən dəstəklənməsini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun.

Çıxışa heç kim yazılmayıb. Ona görə də qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin. Buyurun.

**Səsvermənin nəticələri** (saat 12.36 dəq.)

| | |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***<u>1 aprel 2025-ci il</u>***

**Anar Məmmədov.** Azərbaycan işğaldan azad edilmiş ərazilərə qayıdışla bağlı böyük addımlar atır. Bu istiqamətdə görülən işlər nəticəsində 30 ilə yaxın yurd həsrəti çəkən insanlar öz doğma torpaqlarına, evlərinə qayıdırlar. Bu prosesin – Böyük Qayıdışın təməli hələ 2016-cı ildə qoyulub. Belə ki, həmin ilin aprelində baş vermiş 4 günlük döyüşlər nəticəsində Azərbaycan Ordusu qısa zamanda torpaqlarımızın bir hissəsini işğaldan azad edərək şanlı Zəfər səhifəsini yazdı. Aprel döyüşlərinin tarixi əhəmiyyəti sırasında həmçinin həmin vaxtdan başlayaraq Böyük Qayıdış prosesinə start verilməsini xüsusi qeyd etmək olar. Prezident İlham Əliyevin Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci ildə imzaladığı Sərəncama uyğun olaraq, Böyük Qayıdış prosesinə start verildi. Beləliklə, Cocuq Mərcanlı Böyük Qayıdışın ilk ünvanı oldu.

2020-ci ildə isə Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad olundu, ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsindəki tarixi qələbəmizdən dərhal sonra işğal dövründə Ermənistan tərəfindən vandallığa məruz qalan doğma ərazilərimizdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinə başlanıldı.

2022-ci il noyabrın 16-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq

edilməsi haqqında Sərəncam imzaladı. Vətən müharibəsindən ötən müddətdə işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm işlər görüldü. Görülən işlərin nəticəsi olaraq ötən ay Ağdərə rayonunun yenidən qurulan Həsənriz kəndi sakinlərini qəbul etdi. İşğaldan sonra Həsənriz kəndində yenidənqurma və bərpa işlərinə başlanıb. Artıq kəndə 50 ailə köçürülüb. Həsənriz kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bundan sonra da köç mərhələli şəkildə həyata keçiriləcək.

Hazırda kənddəki fərdi yaşayış evlərində təmir işləri həyata keçirilir. Qısa zamanda Həsənriz kəndi elektrik enerjisi, içməli su və təbii qazla təmin edilib. Burada insanların rahat yaşaması üçün bütün zəruri infrastruktur qurulub.

Təbii ki, bu gün Qarabağda və Şərqi Zəngəzurda yaşayan insanların sayı oraya qayıdan məcburi köçkünlərin sayı ilə məhdudlaşmır. Belə ki, hazırda bu bölgədə aparılan bərpa-quruculuq işlərinin miqdarı bu sayın ondan qat-qat artıq olduğunu deməyə əsas verir. Çünki tunellərin, aeroportların, aqroparkların tikintisinə, müxtəlif infrastruktur layihələrinin həyata keçirilməsinə minlərcə işçi qüvvəsi cəlb olunub. Bu gün təkcə Xankəndi şəhərində 6 mindən çox insan yaşayır. Onlardan 1300-dən çoxu Qarabağ Universitetində çalışır və ya təhsil alır. Daha 500 nəfər isə Nizami Gəncəvi adına Xankəndi şəhər

tam orta məktəbində işləyənlər və təhsil alanlardır. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən işlərdə 20 min nəfərdən çox insan çalışır. Qeyd olunan rəqəmləri ümumiləşdirsək, belə bir nəticəyə gəlmək olar ki, Qarabağa və Şərqi Zəngəzura köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 40 minə yaxın insan yaşayır.

Düşmənin darmadağın etdiyi şəhərlərin və kəndlərin bərpası hazırda sürətlə davam etdirilir, Böyük Qayıdış proqramı çərçivəsində ciddi addımlar atılır. Nəhəng vəsait və qüvvə tələb edən bu işləri Azərbaycan kənardan 1 manat belə almadan özü görür. Bu isə, eyni zamanda, ölkəmizin ildən-ilə artan iqtisadi gücünün daha bir əyani göstəricisidir.

Bir daha doğma yurda qayıdan ağdərəlilər adından hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürümü bildirirəm.

**Afət Həsənova.** Məlum olduğu kimi, ölkəmizdə əhalinin rifah halının yüksəldilməsi, iqtisadi inkişafın təmin edilməsi və sair istiqamətlərdə müntəzəm olaraq islahatlar aparılır, dövlət proqramları həyata keçirilir. Bunun nəticəsidir ki, Azərbaycanın hər bölgəsində irimiqyaslı tikinti-quruculuq işləri həyata keçirilir, memarlıq cəhətdən bir-birindən gözəl yaşayış və qeyri-yaşayış binaları inşa olunur. Nəticə etibarı ilə rayon və şəhərlərimiz öz simasını dəyişərək daha gözəl görünüş qazanır. Eyni zamanda,

köhnəlmiş mənzil fondu da yenilənir ki, bununla əhalinin mənzil şəraiti yaxşılaşır.

Mən fürsətdən istifadə edərək tikinti və şəhərsalma sahəsində həm sahibkarları, həm də vətəndaşları ciddi narahat edən və son günlər gündəmi zəbt etmiş bəzi məqamlara, söküntü işləri zamanı sahibkar və mülkiyyətçi münasibətlərinin tənzimlənməsinə diqqət çəkmək istəyirəm. Bilirsiniz ki, çoxmənzilli yaşayış və qeyri-yaşayış binalarının tikintisi prosesi müvafiq sənədlərin əldə edilməsi, şəhərsalma, memarlıq və təhlükəsizlik qaydalarına uyğunluğu baxımından, eləcə də tikinti aparılacaq sahədə digər mülkiyyətçilər varsa, onlarla razılaşdırılma və bu kimi digər müəyyən vaxt tələb edən mərhələlərdən keçir. İnşa ediləcək hər bir tikili yaşayış məntəqəsinin görkəminin müsbət mənada dəyişməsinə də öz töhfəsini verməlidir. Bu isə mənzil fondunun yenilənməsi, sosial-iqtisadi inkişafın, o cümlədən məşğulluğun təmini və sair sahələr kimi dövlətin həyata keçirdiyi siyasətlərdən biridir.

Təəssüflər olsun ki, tikinti işlərinin icrası zamanı bəzən mülkiyyətçi və icraçı arasında neqativ hadisələrin yaşandığının şahidi oluruq. Belə halların səbəbi isə, əsasən, tərəflər arasında qiymət məsələsində razılığın əldə edilməməsi, xüsusən də bu prosesə fürsət kimi baxıb mülkiyyətin dəyərindən qat-qat artıq məbləğin tələb edilməsi olur.

Bəli, Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinə görə, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Eyni zamanda, Mənzil Məcəlləsinin 5-ci və Mülki Məcəllənin 6-cı maddələri də mənzil hüququnu və mülkiyyətin toxunulmazlığını özündə ehtiva edir. Lakin hesab edirəm ki, hər kəs ilk növbədə duyarlılıq, vətəndaş mövqeyi nü-

mayiş etdirməli, eyni zamanda, başqa şəxslərin hüquqlarına da hörmətlə yanaşaraq yuxarıda sadalanan dövlət siyasətlərinin həyata keçirilməsində ədalət prinsipini qorumaq şərti ilə maneçilik törətməməlidir.

Dünya təcrübəsində inadkar mülkiyyətçilər sayəsində respublika əhəmiyyətli magistral yolların çəkilişi zamanı layihənin təhlükəsizliyə mənfi təsir edəcək şəkildə dəyişməsini, şəhərlərdə göz oxşayan binaların yanında eybəcər tikilinin saxlanılmasını, irimiqyaslı layihələrin icrasının yarımçıq qalmasını və bunun nəticəsində şirkətlərin iflasını və sair bu kimi neqativ nəticələri görmək mümkündür. Əlbəttə, bunlar heç də təqdirəlayiq və arzuedilən hallar deyil. Bu səbəbdən hesab edirəm ki, qanunvericiliyin yuxarıda qeyd olunan müddəaları mülkiyyətçinin vəziyyətdən sui-istifadə etməsinə əsas olmamalı, eyni zamanda, mülkün dəyəri və ya əvəzi ona ədalətli şəkildə rəsmi təklif edildiyi halda, belə hal şəxsin mülkiyyət hüququndan məhrum edilməsi kimi tövsif olunmamalıdır. Həmçinin sahibkarın yüzlərcə şəxs qarşısında müddətli öhdəliklərinin olduğu da nəzərə alınmalı, o şəxslərin hüquqlarına da hörmətlə yanaşılmalıdır. Hər bir halda sahibkarlığın inkişafı və bütün vətəndaşların hüquqlarının təmin edilməsi də dövlətin prioritet məsələlərindəndir.

“Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə əmlakın mülkiyyətçidən könüllü və ya məcburi qaydada əvəzi ödənilməklə alınması qaydaları, eləcə də alınmaya əsas verən dövlət ehtiyacları müəyyən edilmişdir. Bu qanunun 58-ci maddəsi ilə mülkün bazar qiymətinin müəyyən edilməsi, 52-ci maddəyə görə, tərəflər arasında narazılıq

yarandığı təqdirdə alınmanın təsirinə məruz qalan şəxsə ödəniləcək kompensasiyanın növünün və məbləğinin məhkəmə qaydasında təsdiqinin mümkünlüyü, eyni zamanda, 71-ci maddəyə əsasən kompensasiya məbləğinin müvafiq depozit hesaba qoyulması və 42-ci maddə ilə köçürülməsi qaydaları müəyyən edilmişdir.

Danılmaz həqiqətdir ki, inşa edilən hər bir irihəcmli yaşayış və ya qeyri-yaşayış binası şəhərin müasir görünüşünə, mənzil fondunun yenilənməsinə, sahibkarlığın, eləcə də iqtisadiyyatın inkişafına, məşğulluq probleminin həllinə, şəhərsalma sahəsində dövlət siyasətinin təmin edilməsinə öz töhfəsini verir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq hesab edirəm ki, süni maneənin yaradılması nəticəsində çoxsaylı vətəndaşların hüquqlarının pozulmasına yol verilməməli, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun müddəaları analoji hal kimi mülkiyyətçi və tikinti şirkətləri arasında yaranan problemlərin məhkəmə qaydasında həllində tətbiq edilməlidir. Bunun üçün respublikamızın iri yaşayış məntəqələrində belə layihələrin icrasının həmin qanunun 3-cü maddəsinə əlavə edilməklə dövlət ehtiyacı kimi qiymətləndirilməsi məsələsi nəzərdən keçirilə bilər.

**Kamran Bayramov.** Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer Ermənistanda səfərdə olduğu zaman öz sosial şəbəkə hesabında xoşagəlməz və qəbuledilməz bir paylaşım edib, Dağlıq Qarabağ ifadəsi işlədib, Qarabağda, əsasən, ermənilərin yaşadığını bildirib və bu paylaşımı tarixin zibilliyinə atılmış qondarma separatçı rejimin bayrağı ilə müşayiət edib. Bununla da Azərbaycanın ərazi bütövlüyünə və

suverenliyinə açıq-aşkar hörmətsizlik edib. Təəccüblüdür ki, Ştaynmayerin bu hərəkətləri "regiona səfərinin məqsədinin Cənubi Qafqazda uzunmüddətli sabitliyi və sülhü dəstəkləmək" və "səfəri ilə sülh prosesinə dəstək vermək" kimi təmtəraq və pafos dolu nitqlərlə müşayiət olunur. Amma rəsmi Berlinin federal prezident səviyyəsində Ermənistandakı revanşist əhvalını dəstəkləməklə buna necə nail olmaq istədiyi ciddi suallar doğurur. Unutmayaq, bu, həmin Ştaynmayerdir ki, uzun illər Almaniyanın xarici işlər naziri vəzifəsində işləmiş bir şəxs kimi qondarma erməni soyqırımının tanınması ilə bağlı qətnaməni təbliğ edən Bundestaq deputatlarının tərəfini tuturdu. Ona görə də onun erməni təəssübkeşliyi haradasa anlaşılandır.

Qeyd edim ki, bu, Ştaynmayerin Cənubi Qafqaza səfəri zamanı Almaniyanın təqdim etdiyi yeganə "sürpriz" deyil. Almaniya hökuməti tərəfindən maliyyələşdirilən "Deutsche Welle" beynəlxalq yayım şirkəti öz platformasında, çox güman ki, erməni lobbisi və təbliğatçıları tərəfindən çəkilmiş bir film yayımladı. Təbii, film yalan, iftira və təhriflə doludur və maraqlısı odur ki, film boyu çıxışçıların əksəriyyəti ermənilərdir. Burada hansı obyektivlikdən, neytrallıqdan, regionda sülh və sabitlik istəyindən danışmaq olar? Budurmu sülhə və təhlükəsizliyə töhfə? Maraqlıdır, Almaniya Prezidenti sabah ölkəmizə nə üzlə gələcək? Öz ciddi siyasi səhvini, paylaşımında separatçılığa bilərəkdən və ya bilməyərəkdən dəstək verdiyini, regiondakı vəziyyətə bələd olmamasını necə izah edəcək? İzah etməsə və ya etmək istəməsə belə, dünən Xarici İşlər Nazirliyinə çağırılmış və bu cür hərəkətlərin qəbuledilməz olduğu bildirilmiş alman səfiri, yəqin, ona Azərbaycan

tərəfinin qəti mövqeyini çatdıracaq.

Almaniyanın və digər Avropa dövlətlərinin bu cür anti-Azərbaycan təxribatları bir daha göstərir ki, ölkəmizin mövqeyi düzgündür və ədalətlidir. Sülh danışıqlarında nə Almaniyanın, nə də digər dövlətin "iştirakı"na və vasitəçiliyinə heç bir ehtiyac yoxdur. Çünki belə vasitəçilik və səfərlər danışıqlar prosesini sarsıdır, sülhə deyil, daha çox gərginliyə və qarşıdurmalara gətirib çıxara bilər.

**Sahib Alıyev.** Mən üç fərqli, amma fərqli olduğu qədər də bir-birinə bağlı məsələ haqda fikir bildirmək istəyirəm. Onlardan biri türklərə qarşı törədilən bolşevik-daşnak soyqırımıdır. Ona görə "türklərə qarşı" ifadəsini işlədirəm ki, dünən 107-ci ildönümü olan və Arazın hər iki tayında baş verən soyqırımının ardından həmin cütlük Mərkəzi Asiyada da eyni vəhşilikləri törədib. Hesab edirəm ki, təəssübkeş və körpü dövlət olaraq bizim bir missiyamız da bu vəhşiliyi Xəzərin o tayındakı qardaşlarımıza da unutdurmamaqdır. Onun da yolu ilk növbədə Türk Dövlətləri Təşkilatı platformasında həmin vaxt yaşananlara birgə siyasi qiymət verməkdən keçir.

Haqqında danışmaq istədiyim ikinci məsələ ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının illik qlobal hesabatında ərazisində fəaliyyət göstərən 900-dən çox dini icmanın təxminən 30 faizi müsəlman olmayanlardan ibarət Azərbaycanın xüsusi narahatlıq doğuran dövlətlər siyahısına salınması, Qərbi Azərbaycanda 300-dən artıq, Qarabağda və Şərqi Zəngəzurda 65 məscidi yer üzündən silən, alban kilsələrini özününküləşdirən monoetnik Ermənistanın isə din azadlığını tamamilə təmin edən ölkə kimi təqdimidir. Xocalı soyqırımının törədilməsindən, Şuşayla Laçının ələ keçirilib Ermənistana dəhliz açılmasından və

Naxçıvana gedən yolun tamamilə bağlanmasından sonra, yəni 1992-ci ilin oktyabrında guya Qarabağ haylarını blokadada saxladığımıza görə “Azadlığa Dəstək” Aktına 907-ci düzəlişlə bizə sanksiya tətbiq edənlərin bu hərkətlərinin də arxasında hay diasporunun səylərindən çox səlibçi zehniyyətinin dayandığına tam əminəm və qətiyyətlə pisləyirəm!

Sonda Almaniya Prezidenti Ştaynmayerin regiona səfərinə də toxunmaq istərdim. O, Ermənistana gələn gün dövlətinin maliyyələşdirdiyi “Deutsche Welle” də Qarabağda baş verənlərin Qebbelsəcinə saxtalaşdırıldığı sənədli film yayımlandı. Cənab Ştaynmayerin rəsmi səhifəsində Almaniya Demokratik Respublikasının bayrağının deyil, “miatsum”çuların əski parçasının peyda olmasından da görünür ki, bu, qəsdən edilib. Dövlətimizin reaksiyasını görüb o əski parçasını da, “Dağlıq Qarabağ” sözünü də “texniki səhv” adlandırıb rəsmi səhifəsindən yığışdırtdıran, İkinci Dünya savaşında məğlubiyyətə uğradıqdan sonra ölkəsinin necə böyük kompensasiyalar ayırdığını yaxşı bilən Almaniya Prezidentindən soruşmaq istərdim: Nasist soydaşlarının ötən əsrin 30-40-cı illərində etdiklərini təqribən yarım əsr sonra təkrarlayan, son günlər isə həm də onların ötürdüyü silahlarla atəşkəsi dəfələrlə pozan sevimli Ermənistanlarına nə məsləhət görərdi? Törətdiyi vəhşiliyin bədəlini səlibçi zehniyyətlilərdən alacağı milyardlarlamı ödəsin, yoxsa elə yenə həmin Almaniyanın borc qarşılığında Yunanıstandan tələb etdiyi kimi, Azərbaycana torpaqlarının bir hissəsinimi versin, daha dəqiqi qaytarsın?

## MÜNDƏRİCAT

1 aprel 2025-ci il ........................................................................ 3
Edilməmiş çıxışların mətnləri.............................................. 85

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

İkinci sessiya
Yaz

26-cı cild

1 aprel 2025-ci il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 5,5. Sifariş 21. Tiraj 150.